*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 20 (634)

15 oktyabr 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# AZƏRBAYCAN ŞƏRTLƏRİNİ DİKTƏ EDİR

**"Azərbaycan" qəzetinin müxbiri İradə Əliyevanın müəllifi olduğu "Azərbaycan şərtlərini diktə edir" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Azərbaycan Prezidenti hazırkı gərgin dünyamızda apardığı müstəqil siyasətlə ölkəmizin həm xarici, həm də daxili strateji inkişaf xəttini uğurla həyata keçirir.

Ölkəmizə böyük tarixi nailiyyətlər qazandırmaqla yanaşı, bir çox qlobal problemlin aradan qaldırılmasına, bəşəriyyət üçün daha gözəl bir dünyanın qurulmasına mühüm töhfələr verir. Hamını sülhü qorumaqdan ötrü çalışmağa dəvət edir. Qələbə ilə tamamlanan yeni dövr isə öz sözünü deyir.

Elə bu günlərdə Çexiyanın paytaxtı Praqa şəhərində təşkil olunmuş Avropa Siyasi Birliyinin Zirvə Toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev, Fransa Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən dördtərəfli görüş və sonunda verilən birgə bəyanat Azərbaycan diplomatiyasının daha bir qələbəsidir. Başqa sözlə, bunu Vətən müharibəsindəki qələbəmizlə Azərbaycanın regionda yaratdığı yeni tarixi reallıqların dünyada qəbul olunması, düzgün dəyərləndirilməsi və bu obyektiv reallıqlar fonunda Ermənistanla sülhün əldə olunmasına doğru mühüm bir addım saymaq olar.



### Praqa bəyanatının əhəmiyyəti

Praqa bəyanatında deyilir ki, Azərbaycan və Ermənistan BMT-nin Nizamnaməsinə və bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyan 1991-ci il Alma-Ata Bəyannaməsinə sadiqliklərini təsdiq edirlər. Xatırladaq ki, Alma-Ata Bəyannaməsi 1991-ci il dekabrın 21-də imzalanıb. Bir çox tarixçi bunu, əslində, SSRİ-nin dağılmasını rəsmiləşdirən və MDB-nin yaradılmasını elan edən sənəd kimi təhlil edirlər. Bəyannaməni imzalayan dövlətlər bir-birinin ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını tanımaq və hörmət etməklə bağlı üzərlərinə öhdəliklər götürüblər.

Praqa bəyanatı İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanla Ermənistan arasında ölkələrin ərazi bütövlüyü və suverenliyinin əks olunduğu ilk sənəddir. Bu bəyanatda elan edilən müddəalar rəsmi İrəvanın Qarabağı Azərbaycan ərazisi olaraq tanıdığını təsdiqləyir. Bununla Ermənistan 30 ildən sonra qondarma "referendum" və "status" tələbindən imtina etmiş olur. Bəyanatda BMT Nizamnaməsinə və 1991-ci ildə qəbul olunmuş Alma-Ata Bəyannaməsinə istinad isə Azərbaycan və Ermənistan arasında həlelik mövcud olmayan dövlət sərhədlərinin delimitasiyası üçün əsas rol oynayacaq. Delimitasiya üzrə komissiyanın növbəti iclasının oktyabrın sonunda Brüsseldə keçiriləcəyi razılaşdırılıb.

Praqa bəyanatının ən vacib bəndlərindən biri də Azərbaycanla Ermənistan arasında sərhədə Avropa İttifaqının mülki missiyasının göndərilməsi və bu məsələdə də Azərbaycanın öz şərtlərini qəbul etdirməsidir. Belə ki, mediaya verilən açıqlamalara görə, Ermənistanın baş naziri Nikol Paşinyan və Fransa Prezidenti Emmanuel Makron bu komissiyanın hər iki tərəfdə fəaliyyət göstərməsini istəyiblər. Lakin Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan ərazisində belə bir komissiyanın fəaliyyət göstərməsinə razılıq verməyərək ölkəmizin bu komissiya ilə sadəcə əməkdaşlığına razılaşıb. Bəyanatda bununla bağlı öz əksini tapmış müvafiq cümlə ona dəlalət edir ki, əgər komissiya fəaliyyətində hər hansı qeyri-obyektiv davranışlara yol versə, rəsmi Bakı avropalı məsləhətçilərin təkliflərini nəzərə almaya da bilər. Qeyd edək ki, bu missiya öz işini oktyabrda başlayıb, 2 ay müddətinə başa çatdırmalıdır. Missiyanın tərkibinin düzgün formalaşması, burada təmsil olunan üzvlərin tərəfsizliyi, öz işlərini ədalətlə, ikili standartlardan kənar şəkildə yerinə yetirmələri hazırda əsas gözləntilərdəndir. Praqa bəyanatında diqqəti çəkən ən vacib məqamlardan biri də bütün cidd-cəhdlərə baxmayaraq, Ermənistan və Fransanın bəyanata Minsk qrupu həmsədrlərinin fəaliyyəti ilə bağlı hər hansı cümlə daxil etdirə bilməməsidir. Beləliklə, Minsk qrupunun həmsədrlərindən olan Rusiyanın ardınca artıq Fransa da Minsk qrupunun fəaliyyətinə ehtiyac olmadığını etiraf etməkdədir.

### Sülhə yaxınlaşmaq

Dördtərəfli görüşün birinci hissəsindən sonra dövlət rəhbərimizin Azərbaycan televiziyalarına müsahibəsində çox mühüm açıqlamaları oldu. Prezident İlham Əliyev bu müsahibəsində Praqa müzakirələri ilə bağlı bir sıra əhəmiyyətli məqamlara aydınlıq gətirdi və bununla aparılan sülh proseslərinin şəffaflığını, ictimaiyyətin həlledici məqamlar, prosesin gedişi barədə aşkarlığını təmin etmiş oldu.

Azərbaycan Prezidenti "ümid edirəm ki, biz sülhə yavaş-yavaş yaxınlaşırıq" dedi və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin bu prosesdəki rolunu yüksək qiymətləndirdi və ümid etdiyini bildirdi ki, Praqa görüşünün sülh müqaviləsinə çatmaq üçün önəmi olacaq: "Hər halda sülh prosesinə artıq təkan verildi. Bildiyiniz kimi, Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilk görüşü keçirdilər və bizim fikrimizcə, bunun ardı kəsilməməlidir".

Dövlət rəhbərimiz vurğuladı ki, Praqa görüşləri tezliklə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması məqsədi güdür.

Prezident İlham Əliyev Qarabağda yaşayan erməni əhalisi, onlarla təmaslar məsələsi ilə bağlı səsləndirilən suallara da aydınlıq gətirərək bildirdi: "…Bir şeyi artıq bütün dünya ictimaiyyəti açıq dərk edir ki, Qarabağ Azərbaycandır! Bunu biz hər dəfə deyirdik, işğal dövründə, müharibə dövründə, müharibədən sonra. Bu gün dünya birliyi bu həqiqəti artıq nəinki dərk edir, həm də bunu tələffüz edir. Qarabağda yaşayan ermənilər, - mən bunu dünən Ağdamda demişəm, - bizim vətəndaşlarımızdır və onların taleyini, onların gələcək həyatını biz hər hansı bir ölkə ilə müzakirə etmək fikrində deyilik, o cümlədən, Ermənistanla. Bu, bizim daxili işimizdir və Azərbaycanın vətəndaşları hansı hüquqlara malikdirlərsə, ermənilər də o hüquqlara malik olacaqlar. Hər halda əmin ola bilərlər ki, onların yaşayışı, Azərbaycan cəmiyyətinə inteqrasiya edilmiş yaşayışı indiki yaşayışdan qat-qat yaxşı olacaqdır".

Azərbaycanın dövlət başçısı İlham Əliyev bəyan etdi ki, Azərbaycanın daxili işi olan məsələlər barədə sülh müqaviləsində söhbət gedə bilməz.

Prezident İlham Əliyev kommunikasiyaların açılması məsələsinə də toxundu. Ermənistanın 2020-ci il noyabrın 10-da üzərinə götürdüyü, amma yerinə yetirmədiyi öhdəliyi xatırladaraq bildirdi ki, buna görə kommunikasiyaların açılması mümkün sülh müqaviləsinin hissəsi deyil, çünki bu, məhz Ermənistanın xarici siyasətində mühüm bir addım kimi qiymətləndirilir… "Bu gün mən Ermənistanın baş nazirinə yenə də müraciət edəndə ki, nəhayət, bizə avtomobil yolu üçün marşrut verin, təəssüflər olsun, yenə də cavab ala bilmədim. Bu, hətta gülməli də deyil, çünki orada o qədər də böyük sahə yoxdur. Hamı bilir ki, dəmir yolu və avtomobil yolu haradan keçməlidir. Bizə Naxçıvana könüllü olaraq keçid verilməməsi anlaşılan deyil. Öz öhdəliyini pozmaq, əlbəttə, son dərəcə biabırçı faktdır. Lakin biz hələ səbir edirik, təmkin göstəririk. Əminəm, biz buna da nail olacağıq, yaxşı olardı ki, gec deyil, tez olsun".

### Avropa Siyasi Birliyinin mərkəzindəki yer

Dördtərəfli görüşdə iştirak edən tərəflərin iki dəfə bir araya gəlməsi və ikinci görüşün 5 saat çəkməsi müzakirələrin kifayət qədər gərgin keçdiyini, ortaq razılaşmaların əldə olunmasının heç də asan başa gəlmədiyini və Azərbaycan Prezidenti İlham Əliyevin hər zamankı kimi yenə də yüksək qətiyyəti, sarsılmaz iradəsi, xalqın dəstəyinə əsaslanan gücü, mövqeyi ilə ölkəmizin, xalqımızın milli maraqlarını qorumağa müvəffəq olduğunu göstərir.

Avropa Siyasi Birliyinin Praqa zirvəsinin kollektiv fotosu isə bu gün regiondakı reallıqları, əsas şərtləri kimlərin diktə etdiyini aydın göstərir. Bu fotonun tam mərkəzindəki liderlər məhz Azərbaycan və Türkiyə Prezidentləridir. Ermənistan isə bu fotoda yetərincə arxa plandadır.

### Cənubi Qafqazın gələcəyinə baxış

Avropa Siyasi Birliyinin toplantısı çərçivəsində keçirilmiş "Avropa qitəsində sülh və təhlükəsizlik" mövzusunda "dəyirmi masa"da Azərbaycan Prezidentinin regionun gələcəyi, bölgəmizdə daimi sülhün, dayanıqlı inkişafın, faydalı əməkdaşlığın təmin olunması istiqamətində çox önəmli təşəbbüsləri oldu. Prezident İlham Əliyev Cənubi Qafqazda sülh və sabitliyin təmin olunması baxımından Azərbaycan-Gürcüstan-Ermənistan, yeni üçlü formatda vahid müzakirə platformasının yaradılmasının vacibliyini qeyd etdi və bildirdi ki, 3 ölkə enerji, kommunikasiya və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə edə bilər. Bu, əslində Ermənistan hakimiyyətinə və cəmiyyətinə də bir çağırışdır ki, siyasətlərini, baxışlarını dəyişib uzun illərdən bəri yoluxduqları xəstəlikdən uzaqlaşsınlar. Belə ki, sağalacağı təqdirdə regional əməkdaşlıqdan faydalana bilsinlər.

Azərbaycan Prezidenti Türkiyə-Ermənistan dialoqunu da dəstəklədiyini və bu prosesin Azərbaycan-Ermənistan dialoqu ilə paralel getdiyini bildirdi. Bu isə o deməkdir ki, Ermənistan-Türkiyə münasibətlərinin normallaşması üçün Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması əsas şərtdir.

# Polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışı keçirilib







Oktyabrın 11-də Azərbaycan Respublikasının Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Nazir şəxsən onlayn qaydada müraciət etmiş hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Əvvəlcədən elan olunmuş tələblərə uyğun olan 337 nəfər seçilərək seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 62 nəfəri Vətən müharibəsinin iştirakçısı, 1 nəfəri isə şəhid ailəsinin üzvü olub.

Sonda çıxış edən Daxili işlər naziri V.Eyvazov xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edərək seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

**DİN-in Mətbuat xidməti**

2-2_Layout 1 13.10.2022 16:15 Page 1



# BAŞ İDARƏDƏ QƏBUL

Oktyabrın 7-də Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların Baş İdarəsində Pakistan İslam Respublikasının Azərbaycan Respublikasındakı hərbi attaşesi polkovnik Usman Aslamı qəbul edib.

Qonağı səmimi salamlayan general-leytenant Ş.Məmmədov Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasındakı münasibətlərin dərin tarixi köklərə malik olduğunu bildirərək, qardaş Pakistanın Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu diqqətə çatdırıb. O, hazırda ölkələrimiz arasında mövcud olan çoxşaxəli əlaqələrin yüksək inkişafını vurğulayaraq, Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında hərbi əməkdaşlıq münasibətlərinin də uğurla inkişaf etməsindən danışıb.

Ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın mövcudluğunu müsbət hal kimi qiymətləndirən daxili qoşunların komandanı Pakistan İslam Respublikasının Hərbi Attaşeliyi ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında son illərdə yaranmış qarşılıqlı əməkdaşlıq münasibətlərinin bundan sonra da müvəffəqiyyətlə davam edəcəyinə əminliyini ifadə edib.



Səmimi qəbul üçün təşəkkürünü bildirən polkovnik U.Aslam ikitərəfli münasibətlərin ölkələrin gələcək inkişafına böyük təkan verəcəyini vurğulayıb. Qonaq, öz növbəsində, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarına və Pakistan İslam Respublikasının bir sıra hərbi təyinatlı qurumları arasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi üçün lazımi dəstək verəcəyini bildirib.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə qeyd olunub ki, iki ölkənin müvafiq qurumları arasında səmimi dostluq və hərbi əməkdaşlıq bundan sonra da uğurla davam edəcək.

**Beynəlxalq hərbi əməkdaşlıq şöbəsi**

# TARİX YAZDILAR, TARİXƏ DÖNDÜLƏR



XXI əsrdə sədası sərhədlər aşan müharibəni yenidən təcavüz niyyəti ilə başladanın sonunun ibrətlik olduğu bu gün göz önündədir. "Əfsanəvi ordu"nun yenilməzliyinin nişanəsi döyüş meydanında sıradan çıxarılmış tanklar, toplar, dəyəri milyonlarla ölçülən digər silahlar olsa da, düşmən onu dirçəltmək üçün yaxında, uzaqda yenə havadar axtarır. Ancaq bir şeyi unudur ki, növbəti cəhdləri yer üzündən silinmək təhlükəsi ilə onları üzbəüz qoyacaq. Belə olan halda isə nə yaxın köməyə çatacaq, nə də ki, uzaq.

Qalib xalq və ordu kimi Vətən müharibəsinin üstündən iki il ötsə də, biz hər günümüzü zəfər coşqusu ilə yaşayırıq. Bu tarixi qələbəni bizə bəxş edənləri isə hörmətlə anır, ehtiramla yad edirik. Paytaxtda və bölgələrdə həmkarlarımız şəhid ailələrini ziyarət edir, onların kədərinə şərik olurlar.




Vətən müharibəsinin növbəti ildönümündə Neftçala Rayon Polis Şöbəsinin rəhbərliyi və əməkdaşları, eləcə də Daxili Qoşunların hərbi qulluqçuları torpaqlarımızın azadlığı uğrunda aparılan Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan hərbçilərimizin ailələrini ziyarət ediblər.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları olmuş baş çavuşlar Şahlar Məmmədov, Səid Cəfərov və çavuş Rauf Süleymanovun ailə üzvlərinin qonağı olan polislər və hərbi qulluqçular görüş zamanı onların qayğıları ilə maraqlanıb, şəhidlərimizin Vətən müharibəsində göstərdikləri qəhrəmanlıqlardan, qələbə əzmindən danışıblar. Bildirilib ki, müqəddəs amal uğrunda canlarından keçən mərd oğullarımızın əziz xatirələri hər zaman qəlbimizdə yaşayacaq və onların igidlikləri gələcək nəsillər üçün örnək olacaq.

Şəhid ailələri də onlara göstərilən diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildiriblər.

Görüşlərin sonunda RPŞ-nin kollektivi və hərbi qulluqçular şəhidlərin məzarlarını ziyarət edərək, önünə əklil və gül-çiçək dəstələri qoyublar.

Oktyabrın 1-də isə Binə qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırılan Daxili Qoşunların hərbi qulluqçusu baş çavuş Tural Abdullayevin anım günü keçirilib. Daxili İşlər Nazirliyi yanında İctimai Şura üzvləri də anım gününə qatılıblar.

**DİN-in Mətbuat xidməti**

# TƏLİM SINAQLARINI UĞURLA BAŞA VURAN XÜSUSİ TƏYİNATLILAR ZOĞALI BERETLƏ MÜKAFATLANDIRILIBLAR

Daxili Qoşunların xüsusi təyinatlı bölmələrinin hərbi qulluqçuları xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində fərdi fiziki hazırlığın, peşə vərdişlərinin, həmçinin, yüksək mənəvi-psixoloji keyfiyyətlərin yoxlanılması məqsədilə təlim sınaqlarına cəlb olunurlar. Təlim sınaqlarını "əla" və "yaxşı" qiymətlərlə başa vuran hərbi qulluqçular isə zoğalı beretə layiq görülürlər.

Daha bir təlim sınağı Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq əmri ilə sentyabrın 27-dən 29-na kimi 99713 saylı hərbi hissənin təlim mərkəzinin ərazisində və hərbi hissənin təlim obyektlərində keçirilib. "Zoğalı bereti qazanmaq üçün peşə hazırlığı sınaqları"na Daxili Qoşunların Zoğalı beretlər şurasının sədri polkovnik Zəfər Əliyev rəhbərlik edib.

Təlim sınaqları altı mərhələdə keçirilib. İlk olaraq, yolüstü taktiki tapşırıqları yerinə yetirməklə, 10-12 kilometr məsafəyə tam təchizatlı marş qaçışını uğurla başa çatdıran xüsusi təyinatlılar ikinci mərhələdə ekstremal şəraitdə xüsusi maneələr zolağını müvəffəqiyyətlə dəf ediblər. Sonra avtomat, pulemyot və tapançadan xüsusi təlim atış çalışmaları yerinə yetirilib.

Hər dörd mərhələni uğurla yerinə yetirən hərbi qulluqçular beş və altıncı sınağa keçidi təmin ediblər. Onlar yüksək fiziki hazırlıq nümayiş etdirərək, əlbəyaxa döyüş təlimini də bacarıqla yerinə yetiriblər. Ümumilikdə, peşə ha-



zırlığı sınaqlarının keçirilməsi müddətində tədbirə cəlb olunan 19 nəfər iştirakçıdan 7 nəfəri sınaqları müvəffəqiyyətlə başa vuraraq bu ada layiq görülüb.

Sentyabrın 29-da 99713 saylı hərbi hissədə təlim sınaqlarına yekun vurulub. Yekunda iştirak edən Daxili qoşunlar komandanının 1-ci müavini-qərargah rəisi general-mayor Tofiq Hüseynov zoğalı beretə layiq görülən hərbi qulluqçuları təbrik edərək bildirib ki, xüsusi təyinatlılarımız bu şərəfli adı hər zaman uca tutmalı, döyüş qabiliyyətinin artırılması istiqamətində öz üzərilərində çalışmalıdırlar.

**baş leytenant
Nigar Ağayeva**

# HƏRBİ HİSSƏDƏ ANIM GÜNÜ İLƏ BAĞLI SƏRGİ KEÇİRİLİB

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Vətən müharibəsində qəhrəmanlıqla döyüşən, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin ruhuna hörmət əlaməti olaraq, respublikamızda 27 sentyabr – Anım Günü təsis olunub. Bununla əlaqədar ölkəmizin hər yerində şəhidlər anılır, onların məzarları ziyarət olunur, hər bir şəhidin əziz xatirəsi ehtiramla yad edilir.

Qeyd edək ki, Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının imzaladığı plana əsasən, Daxili Qoşunların hərbi hissələrində də Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların xatirəsinə həsr olunmuş anım tədbirləri keçirilib. Belə ki, qürur yerimiz olan şəhidlərimizin ruhunun ehtiramla anıldığı bu tədbirlərdən biri də 12565 saylı hərbi hissədə təşkil olunub.

Sözügedən hərbi hissənin istedadlı hərbi qulluqçularının Anım Gününə həsr olunmuş əl işlərindən ibarət sərgi nümayiş olunub. Bu barədə hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin rəisi-baş təlimatçı mayor Orxan Seyidov məlumat verib.

Hərbi hissənin komandiri general-mayor Səlim Niftalıyevin iştirak etdiyi tədbirdə öncə 44 günlük Vətən müharibəsində qəhrəmancasına həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra Vətən müha-



ribəsi mövzusunu özündə əks etdirən bir-birindən maraqlı mozaika, maket, rəsm nümunələri nümayiş etdirilib. Həqiqətən də olduqca rəngarəng sərgidə Əbədi məşəl abidəsi, Şuşa qalası, Ağdam Cümə Məscidi, Xudafərin körpüsü, Zəngəzur dəhlizi, xarıbülbül, itiqovan pilotsuz uçuş aparatını əks etdirən və digər əl işləri yüksək bacarıqla, ustalıqla işlənib hazırlanıb.

Sərgiyə baxış keçirən general-mayor S.Niftalıyev şəxsi heyət qarşısında çıxış edərək Vətən müharibəsinin xalqımızın qəhrəmanlıq salnaməsi olduğunu vurğulayaraq, bu müharibədə yeni nəsil gənclərin fədakarlığı, igidliyi nəticəsində 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunmasının çox səvindirici və qürurverici hadisə kimi yaddaşlarda qalacağını bildirib. Bu müharibədə 66 nəfər şəhid verən Daxili Qoşunların döyüş yolunun bugünkü şəxsi heyətə dəyərli örnək olduğunu xüsusi olaraq diqqətə çatdırıb.

Sonda sərgidə iştirak edən bütün hərbi qulluqçular hərbi hissə komandiri tərəfindən mükafatlandırılıblar.

**baş leytenant
Nigar Ağayeva**

# XÜSUSİ HƏMLƏ YARIMQRUPLARI VƏ SNAYPER KOMANDALARI ARASINDA YARIŞLAR KEÇİRİLİB

Sentyabrın 19-dan 24-dək hərbi hissələrin xüsusi təyinatlı dəstələrinin xüsusi həmlə (əməliyyat) yarımqrupları və snayperləri arasında xüsusi-taktiki hazırlıq üzrə yarışlar keçirilib. Bu barədə məlumat verən Daxili Qoşunların Baş İdarəsində qərargahın döyüş hazırlığı şöbəsində xüsusi təyinatlı bölmələrin hazırlığı üzrə baş zabit mayor Orxan Bədirxanov bildirib ki, yarışlara Daxili Qoşunların 17074, 25033, 16077, 16073, 17072, 16075 saylı hərbi hissələrinin və 16077 saylı hərbi hissənin ayrı yerləşən xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə (əməliyyat) yarımqrupları və snayper komandaları cəlb olu-



nublar: "Ümumilikdə, 70 nəfər hərbi qulluqçunun iştirak etdiyi yarışlar zamanı yüksək mənəvi-psixoloji dayanıqlıq, fiziki dözümlülük, hərbi intizam və birincilik uğrunda mübarizə səyləri nümayiş etdirilib. Xüsusi həmlə yarımqrupları səkkiz nəfər tərkibdə olub. Heç bir pozuntu halına yol verilməyib".

Mayor O.Bədirxanov qeyd edib ki, xüsusi həmlə yarımqrupları arasında yarışın proqramına uyğun olaraq, xüsusi taktiki hazırlıq, fiziki




hazırlıq, atəş hazırlığı, hərbi topoqrafiya üzrə, snayper komandaları arasında snayper hazırlığı, atəş hazılığı üzrə, eləcə də istehkamçılar tərəfindən imitasiya vasitələrindən istifadə edərək partlayıcı vasitələrin quraşdırılması, xüsusi tapşırıqların icrası üzrə komanda üzvlərinin, ümumilikdə, komandaların praktiki vərdişləri yoxlanılıb və müvafiq qaydada qiymətləndirilib.

Xüsusi-taktiki hazırlıq üzrə yarışların ümumi nəticələrinə görə, hərbi hissələr üzrə xüsusi təyinatlı dəstələrin xüsusi həmlə yarımqrupları arasında 16073 saylı hərbi hissə ən yüksək bal toplayaraq birinciliyi qazanıb. 16075, 16077 saylı hərbi hissələr müvafiq olaraq ikinci və üçüncü yerlərə layiq görülüblər.

Yarışlar zamanı, həmçinin, snayperlərin atıcılıq vərdişləri və snayper hazırlığı da yoxlanılıb. Ümumi nəticələrə görə, 16075, 16077 və 25033 saylı hərbi hissələr digər komandalara nisbətən daha yüksək nəticələr nümayiş etdiriblər.

**baş leytenant Nigar Ağayeva**

# ŞƏXSİ HEYƏT DÖYÜŞ ATIŞLI TAKTİKİ TƏLİMDƏ ƏZMKARLIQ NÜMAYİŞ ETDİRİB

Sentyabrın 27-dən 29-dək Müdafiə Nazirliyinin təlim mərkəzində Daxili Qoşunların 12565 saylı hərbi hissəsinin minaatan batareyasının şəxsi heyəti ilə döyüş atışlı taktiki təlim keçirilib.

İlk olaraq, təlimin təşkili və keçirilməsi üçün müvafiq planlaşdırıcı sənədlər hazırlanıb. Sonra təlimin planı və məqsədi, təhlükəsizlik qaydalarına riayət olunmasının vacibliyi şəxsi heyətə çatdırılıb, hərbi qulluqçuların hazırlığına, silahlara, döyüş sursatlarına, optik kəşfiyyat cihazlarına, GPS və rabitə vasitələrinə baxış keçirilib. Həmçinin, hərbi qulluqçulara atəş mövqeyinin tutulması, tərk edilməsi, atəş açana qədər heyətlərin işi, atışa xidmət tapşırıqlarının icrası, praktiki döyüş atışlarının keçirilməsi qaydaları, komandir heyəti ilə ərazinin vizual kəşfi, qiymətləndirilməsi və digər mövzular, eləcə də taktiki və ixtisas hazırlığı üzrə məşğələlər təşkil olunub.

Təlim zamanı batareya ilə xüsusi təyinatlı bölmənin döyüş fəaliyyətinin uzlaşması üzrə suallar işlənilib. Hücum fəaliyyətinin gedişində batareyanın yerdəyişməsi, xüsusi təyinatlı bölmənin istəyi üzrə yeni aşkar olunmuş hədəflərə atəş tapşırıqlarının icrası, bu zaman xüsusi təyinatlı bölmənin hərbi qulluqçuları tərəfindən atışa xidmət tapşırıqlarının yerinə yetirilməsi, batareya tərəfindən hədəflərin susdurulması və artilleriya atəşindən sonra xüsusi təyinatlı bölmə tərəfindən hədəflərin məhv edilməsi təmin olunub. Təlimdə iştirak edən böl-





mələrin fəaliyyətinin uzlaşması real döyüş şəraitinə uyğun yerinə yetirilib.

Qeyd edək ki, təlimin planlaşdırıcı sənədlərinin hazırlanmasında, qarşıya qoyulmuş tapşırıqların layiqincə yerinə yetirilməsində kapitan Elvin Əliyev, baş leytenant Kənan Yəhyayev, baş çavuş Ruslan İbrahimov, çavuş Şahin Osmanov, kiçik çavuşlar Elgün Kazımlı və Hünal Ağayev fərqləniblər.

Təlimdə yüksək nəticələr qazanan hərbi qulluqçular hərbi hissə komandiri tərəfindən mükafatlandırılıblar.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 13.10.2022 17:43 Page 1



44 günlük Vətən müharibəsində öz qanı və canı bahasına böyük qəhrəmanlıq nümunələri göstərərək torpaqlarımızı mənfur düşmən tapdağından azad edən şəhid silahdaşlarımızın şərəfli döyüş yolunu öyrənmək hər birimizin vətənpərvərlik borcudur.

*Şəhidlərimiz*

# "TORPAQLARIMIZI BİZ AZAD EDƏCƏYİK!"

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən uğrunda şəhadətə yüksəlmiş igid xüsusi təyinatlılarından biri də çavuş Mirəşrəfbəyli Mirsəfa Mirbaba oğludur.

Çavuş Mirsəfa Mirəşrəfbəyli 1994-cü il iyulun 27-də Cəlilabad rayonunun Badamağac kəndində anadan olub. Mirbaba Ağamalıyevin və Yaqut Ağamalıyevanın (2011-ci ildə vəfat edib) böyüdüb boya-başa çatdırdığı beş övladdan (Şəmsiyyə, Əbülfəz, Aysel, Mirsəfa və Mirhasil) biri idi.

Orta təhsilinin 4-cü sinfədək olan hissəsini doğma Badamağac kəndində yerləşən ibtidai məktəbdə alıb, 5-11-ci sinifləri isə şəhid Araz Qardaşxanov adına Şatırlı kənd tam orta məktəbində oxuyub. İbtidai sinif müəllimi Mirverdi Bədirovun, ədəbiyyat fənn müəllimi və sinif rəhbəri olmuş Zülfi Məcidovun qeyd etdikləri kimi, Mirsəfa məktəbdə oxuduğu illərdə özünəməxsus xarakteri, sakit təbiəti, səmimi davranışı, nizam-intizamı, eləcə də yüksək əxlaqi keyfiyyətləri ilə həmyaşıdlarından fərqlənən şagird olub. Eyni zamanda, yeniyetmə yaşlarından hərbi xidmətə böyük maraq göstərib, vətənpərvər ruhda böyüyərək tərbiyə alıb.

Mirsəfa müddətli həqiqi hərbi xidmətini 2012-ci ilin iyul ayından 2014-cü ilin yanvar ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışıb. Lakin hərbçi peşəsinə olan böyük marağı səbəbindən hərbi xidmətə qayıtmağa qərar verib. Beləliklə, 2016-cı ilin iyul ayında Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunan Mirsəfa Vətənə olan borcunu yerinə yetirməyə başlayıb. 2017-ci ilin avqust ayından etibarən hərbi hissənin "Pələng" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirən çavuş M.Mirəşrəfbəyli əvvəlcə atəş təminatı qrupunun 12,7 mm-lik iriçaplı pulemyot yarımqrupunun sürücüsü, xüsusi həmlə qrupunun heyət nəfəri, atıcı-qumbaraatan köməkçisi vəzifələrində, 2020-ci ilin iyun ayından şəhidlik məqamına yüksəldiyi günədək isə 99713 saylı hərbi hissənin "Şahin" xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun dəzgahlı qumbaraatan yarımqrupunun heyət nəfəri kimi xidməti-vəzifə borcunu ləyaqətlə yerinə yetirib. Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı, hərbi intizamı, nümunəvi xidməti



ilə böyük rəislərin etimadını doğruldub, dəstənin və hərbi hissənin komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri olmuş, Vətən müharibəsi iştirakçısı polkovnik-leytenant Zaur Rəhimov (hazırda 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri) vaxtilə tabeliyində xidmət etmiş çavuş M.Mirəşrəfbəylinin nümunəvi hərbi xidmətindən və iştirak etdiyi döyüşlər zamanı göstərdiyi şücaətdən qürur duyduğunu dedi. Bildirdi ki, Mirsəfa dəstəyə gəldiyi ilk gündən intizamı, təlim-tərbiyəsi və səmimi rəftarı ilə kollektivin rəğbətini qazanmışdı: "Mirsəfa vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan, verilən tapşırıqları dəqiqliklə yerinə yetirən, şəxsi intizamı, döyüş və fiziki hazırlığı yüksək səviyyədə olan əsl vətənpərvər xüsusi təyinatlı olub. Atəş və fiziki hazırlıq məşğələləri zamanı fəallığı, bilik və bacarığı ilə hər zaman yoldaşlarından fərqlənib. Bu gün də hər birimizin fəxri olan Mirsəfanın, eləcə də onun kimi igid oğullarımızın Vətən müharibəsində göstərdikləri qəhrəmanlıq nümunələri gələcəyimiz olan gənclər üçün hər zaman örnək olacaqdır".

Bəli, 44 günlük Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlara qatılan çavuş M.Mirəşrəfbəyli silahdaşları ilə birgə Murovdağ istiqamətindəki strateji əhəmiyyətli yüksəkliklərin, eləcə də Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının bir sıra yaşayış məntəqələrinin azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

**10 oktyabr 2020-ci il.** Xocavənd rayonunun Hadrut qəsəbəsinin müdafiəsi uğrunda gedən döyüş Mirsəfanın son döyüşü oldu. Bu barədə xatirələrini bizimlə bölüşən 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi əməliyyat qrupunun snayperi, Vətən müharibəsi iştirakçısı çavuş Təbriz Məmmədov bildirdi ki, 2020-ci il sentyabrın 27-dən başlayaraq Mirsəfa ilə birgə döyüş əməliyyatlarında iştirak edib. Mirsəfanın ilk döyüşü Murovdağ ərazisində "Koroğlu" yüksəkliyi istiqamətindən hərəkət edərək, ermənilərin "Canavar sağ" və "Canavar sol" adlanan yüksəkliklərdəki mövqelərinin alınması uğrunda olub. Silahdaşları ilə birgə qarşıya qoyulan döyüş tapşırığını uğurla yerinə yetirib: "Sonrakı tapşırığımız təxminən axşam saat 20:00 radələrində ermənilərin Ömər aşırımı ətrafındakı digər mövqelərinə hücum etmək oldu. Bu zaman tərkibində Mirsəfanın da olduğu qrupumuzun şəxsi heyəti düşmənin mühasirəsinə düşdü. Şiddətli döyüş səhər saatlarına qədər davam etdi. Nəhayət, düşməni məğlub edərək mühasirəni yarıb, ermənilərin postunu aldıq. Bir şəhidimiz, on iki yaralımız oldu. Bu döyüşdə xüsusilə fərqlənən Mirsəfa öz sərrast atəşi ilə düşmənin onlarla canlı qüvvəsini məhv etməklə yanaşı, yaralı silahdaşlarımıza ilk tibbi yardımın göstərilməsində, onların döyüş meydanından çıxarılaraq təxliyyə olunmasında fəal iştirak edib.

Cəbrayıl, Füzuli və Xocavənd istiqamətlərində birgə iştirak etdiyimiz sonrakı döyüşlərdə də cəsur silahdaşımız hərbi anda sadiq xüsusi təyinatlı olduğunu bir daha təsdiq etdi.

Oktyabrın 9-da Hadrut qəsəbəsi düşməndən azad olunsa da, ətrafdakı bəzi yüksəkliklərdə erməni işğalçılarının postları hələ də qalırdı. Acı məğlubiyyətlə barışmaq istəməyən düşmən məhz bu yüksəkliklərdən olduğumuz mövqeləri müxtəlif növ atıcı silahlardan və artilleriyadan atəşə tuturdu.

Oktyabrın 10-da səhər saatlarında Müdafiə Nazirliyinin xüsusi təyinatlıları ilə birgə hücuma başladıq. Yaxınlıqdakı düşmən mövqeyini tutmaq üçün ilk olaraq dörd nəfərlə oraya yaxınlaşdıq. Sonra kömək üçün əlavə dörd nəfər istədik. Köməyə gələn silahdaşlarımızın arasında Mirsəfa da vardı. Şiddətli döyüş başladı. Bu zaman lap yaxınlığımda mənimlə birgə vuruşan Mirsəfanın "vuruldum" dediyi bircə kəlmə səsini eşitdim. Cəld özümü ona yetirib, ilk tibbi yardım göstərmək üçün aşağıya, böyük daş parçasının yanına çəkdim. Dəbilqəsini çıxartdım. Əynindəki zirehli gödəkcəsini çıxarmaq istəyərkən, Mirsəfa elə qucağımdaca gözlərini yumaraq əbədi ölümsüzlü-



yə - şəhidlik zirvəsinə yüksəldi. Düşmənin atdığı güllə onun məhz zirehli gödəkcənin mühafizə etmədiyi sol qolunun altından dəyib, ürəyini yaralayaraq sağ nahiyədən çıxmışdı. Cəmi bir güllə yarası almışdı, o da Vətəninə bağlı olduğu və hər zaman onun uğrunda döyünən qəlbindən...

Bu döyüş zamanı, ümumilikdə, səkkiz nəfər silahdaşımız qəhrəmancasına şəhid oldu. Şəhidlərimizi təxliyyə qruplarına təhvil verərək, onların intiqamını mənfur düşməndən almaq üçün döyüşü davam etdirdik".

Vətən müharibəsi zamanı Mirsəfa ilə eyni qrupun tərkibində vuruşmuş 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi əməliyyat qrupunun yarımqrup komandiri baş çavuş Samir Qalamov (2020-ci il oktyabrın 29-da Xocavənd rayonunun Qırmızı Bazar yaşayış məntəqəsi istiqamətində yaralanıb), atəş təminatı qrupunun pulemyotçusu baş çavuş Paşa İmanov, xüsusi əməliyyat qrupunun atıcıları: çavuş Nəzarət Musayev və çavuş Etibar Hacıbabalının fəxrlə söylədiklərindən də məlum olur ki, işğalçı düşmənə qarşı böyük nifrət hissi ilə döyüşlərə qatılan igid silahdaşımız ermənilərin xeyli sayda canlı qüvvəsini məhv etməklə əsl qəhrəmanlıq nümunələri göstərib.

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilmiş 17 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə isə hərbi qulluqçumuzun 2020-ci il oktyabrın 11-də Füzulidə hərbi əməliyyat nəticəsində odlu silah yarasından həlak olduğu yazılıb.

Çavuş M.Mirəşrəfbəyli 2020-ci il oktyabrın 11-də Cəlilabad rayonunun Badamağac kənd qəbiristanlığında dəfn olunub. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 15 və 25 dekabr 2020-ci il tarixli, eləcə də 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Mirəşrəfbəyli Mirsəfa Mirbaba oğlu (ölümündən sonra) "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

"Xəzər" televiziyası tərəfindən "YouTube" internet portalı vasitəsilə yayımlanan "Adı dillərdə dastana dönən şəhid – Mirsəfa Mirəşrəfbəyli" adlı süjetdə ailə üzvlərinin xatirələri əsasında igid hərbi qulluqçumuzun gənc nəslə nümunə olan həyat və döyüş yolu barədə məlumatlar izləyicilərə təqdim edilib.

Bundan əlavə, 2022-ci ildə "Aran" Uşaqların Sağlam Gələcəyi İctimai Birliyi tərəfindən nəşr olunan "Qələbə şəhidləri (IV cild)" adlı kitabda cəsur silahdaşımız haqqında məlumat dərc olunub.

Qeyd edək ki, Badamağac kəndinin yeganə şəhidi olan Mirsəfanın məzunu olduğu ibtidai məktəbdə xatirəsinə fotostend hazırlanıb, ailə üzvlərinin yaşadığı evdə xatirə guşəsi düzəldilib.

"Allah bütün şəhidlərimizə rəhmət eləsin, məkanları cənnət olsun. Qazilərimizə də şəfa diləyir, hər birinin canı sağ, ömürləri uzun olsun deyirəm. Torpaqlarımızın müdafiəsində dayanan qeyrətli oğullarımızla hər zaman qürur duymuşam və bundan sonra da qürur duyacağam. Mirsəfa hər zaman deyərdi: "Torpaqlarımızı biz azad edəcəyik! Gələcək nəsillərə qalmamalıdır!". Arzum budur ki, ölkəmizin başı üzərindəki "qara buludlar" birdəfəlik çəkilsin, sülh, əmin-amanlıq və firavanlıq hökm sürsün" – deyən şəhid atası Mirbaba Ağamalıyevin də vurğuladığı kimi, müqəddəs üçrəngli bayrağımız şəhid və qazilərimizin qanı bahasına azad etdiyimiz doğma torpaqlarımızda bundan sonra da əbədi olaraq qürurla dalğalanacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

---

*Qazilərimiz*

# ÖN CƏBHƏNİN OD-ALOVUNDAN KEÇƏN İGİD

Başımızı ucaldan, bizə qürurla yaşamağı bəxş edən şəhidlərimizə və qazilərimizə ehtiramımız sonsuzdur. Onların hər birinin döyüş yolu Vətən sevgisi, hərbi anda sədaqət və mətinlik örnəyidir.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sabiq hərbi qulluqçularından biri, istefada olan çavuş Şahməmmədov Pərvin Şahməmməd oğlu Vətən müharibəsi qazisidir. O, 1995-ci il iyunun 24-də Mingəçevir şəhərində doğulub. Ailəsi əslən Yevlax rayonunun Kövər kəndindəndir. Şahməmməd Şahməmmədov və Fatma Şahməmmədovanın iki oğul övladından yaşca böyüyüdür.

Qeyd edim ki, Pərvinin babası Mirzə Mirzəyev II Dünya müharibəsi dövründə ön cəbhəyə göndərilərək faşistlərə qarşı döyüşüb.

Kövər kəndinin respublikamızın ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərdə şəhadətə ucalaraq doğma yurdda torpağa tapşırılan şəhidi var. Bəzi sakinlər ön cəbhədən qazi olaraq qayıdıblar. Kənddəki tam orta məktəb 1991-ci ilin 20 noyabr tarixində Qarakənd səmasında atəşlə vurulan helikopterdə erməni terrorunun qurbanı olmuş görkəmli dövlət xadimi Tofiq İsmayılovun adını daşıyır. Bu məktəbin məzunu olan Pərvin həm valideynləri, həm də müəllimləri tərəfindən vətənpərvər, mənəvi dəyərlərimizin aşılandığı gənc kimi yetişdirilib. Təhsilinə ciddi yanaşıb, idmanın futbol növünə yeniyetmə yaşından maraq göstərib.

2014-cü ilin yanvar ayında Pərvin müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət keçərək, artilleriya bölməsində baş tuşlayıcı olub. 2015-ci ilin iyul ayında hərbi xidmətdən tərxis edilib.

2016-cı ilin may ayının 18-də Pərvin öz arzusu ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun atıcı-sanitarı vəzifəsinə təyin edilərək hərbi xidməti dövründə komandanlığın ona göstərdiyi etimadı doğruldub. Silahdaşlarının hörmətini qazanıb. Funksional vəzifələrini və qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirib.

Vətən müharibəsi iştirakçısı, 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri, əvvəl 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri olmuş polkovnik-leytenant Zaur Rəhimov bildirdi ki, onun tabeliyində xidmət etmiş Pərvin vətənpərvərliyi, intizamı, yüksək döyüş hazırlığı ilə fərqlənib. Xüsusi taktiki təlimlər və gündəlik məşğələlərdə bacarıqlı, çevik və çalışqan hərbi qulluqçu kimi öz peşə hazırlığını təkmilləşdirib. Xüsusi həmlə qruplarının yarışlarına qatılaraq qabaqcıl yerlər tutub. Gəncə şəhəri, Qazax və Ağstafa rayonlarının ərazilərində xüsusi əməliyyatlara, bundan əlavə, koronavirus infeksiyası ilə bağlı karantin rejiminin təmin edilməsi üzrə xidmətə cəlb olunub. Ümumilikdə, nümunəvi xidmətinə görə dəfələrlə mükafatlandırılıb.

Dəstə komandirinin sözlərinə görə, Pərvin Vətən müharibəsinin ilk günündən döyüşlərdə iştirak edərək, torpaqlarımızın işğaldan azad olunması naminə mərdliklə vuruşub, çətin sınaqlarla üzləşdikdə əsl xüsusi təyinatlı olduğunu qətiyyəti ilə isbatlayıb.

Daxili Qoşunların sabiq hərbi qulluqçusu, Vətən müharibəsi iştirakçısı, İsmayıllı Rayon Polis Şöbəsinin post-patrul xidməti bölüyünün komandirinin müavini polis kapitanı Qurban Səfərli hərbi xidmət zamanı Pərvinin qrup komandiri olduğunu, qazini 2017-ci ildən tanıdığını dedi: "Peşəkar, fiziki hazırlığı cəhətdən məharətli, verilmiş tapşırıqların öhdəsindən bacarıqla gələn, xaraktercə sakit təbiətli, yoldaşları ilə ünsiyyətində mehriban və təmkinli hərbi qulluqçu olub. Qrupda hər hansı fərdi tapşırıq verildikdə, nəsə düzəltmək lazım olduqda o, ilk qabağa çıxırdı. Xüsusi təyinatlıların yarışlarında əzmkarlığı ilə seçilib.

Vətən müharibəsi hər birimiz üçün çətin və şərəfli sınaq oldu. Müharibədən əvvəl



İsmayıllı rayonunda təlimlərə qatılmışdıq. Xüsusi təyinatlı üçün hər bir təlim döyüş vərdişlərinə yiyələnmək deməkdir.

2020-ci il sentyabrın 27-dən etibarən Murovdağ silsiləsində döyüş tapşırıqlarını yerinə yetirməyə başlamışıq. Susuzluq kəndi istiqamətində irəliləmişik. Düşmənin 3 postunu ələ keçirmişik, 40-a yaxın canlı qüvvəsini məhv etmişik. Həmin döyüşlərdə Pərvin cəsarətlə döyüşüb, çətin relyefli ərazidə, atəş altında yaralıların təxliyyəsində də güc və bacarığını əsirgəməyib. Sonra Füzuli, Cəbrayıl, Xocavənd rayonları istiqamətlərində döyüş yolumuz davam edib. Hadrut qəsəbəsi, Daşkəsən, Tuğ, Azıx, Məhəmməddərə, Böyük Tağlar kəndlərinin işğaldan azad olunmasında Pərvin qorxmazlıq göstərərək vuruşub. Döyüşlərdən birində məlumat aldıq ki, hərbçilərimizdən bir qismi mühasirəyə düşüb, onlara kömək lazım idi. Dəstə komandiri başda olmaqla 60 nəfərə yaxın xüsusi təyinatlı ilə köməyə getdik. Yolda işğalçılar bizi pusquya saldılar. Təhlükəli vəziyyətdən çıxa bildik, maneələri dəf edərək irəlilədik, ermənilərin atəş nöqtələrinin susdurulmasında Pərvin öncül döyüşçülərdən biri oldu. Oktyabrın 24-də Qırmızı Bazar qəsəbəsinə yaxınlaşmışdıq. Qəsəbə və ətraf kəndlər güclü müdafiə olunurdu. Minaatan və AQS-17 silahlarından atəşə tutulduq. Növbəti gün Qırmızı Bazar ətrafında döyüşlər zamanı hərbi qulluqçularımızdan 17 nəfər yaralandı, 1 nəfər şəhid oldu. Oktyabrın 26-da hücum zamanı yenidən artilleriya və müxtəlif çaplı silahlardan şiddətli atəşə məruz qaldıq. 24 nəfər yaralımız vardı. Mən də yaralandım. Həmin döyüşdə Pərvin mərmi qəlpələrindən ağır yaralansa da, ağrılara iradəsini toparlayaraq dözürdü. Yaralıları təhlükəsiz yerə çıxardıq, lakin ağır döyüş getdiyindən təxliyyə qrupu gəlib çata bilmirdi. Bir neçə saat gözləməli olduq. Yaralılardan biri şoka düşərək şəhid oldu, digərlərini təxliyyə etməyi bacardıq".

17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun qumbaraatan köməkçisi, Vətən müharibəsi iştirakçısı çavuş İdris Şahmalıyev məlumat verdi ki, Pərvini 2018-ci ildən tanıyır, eyni hərbi hissədə xidmət ediblər. Qeyd etdi ki, silahdaşı etibarlı və güvənilәsi yoldaşdır, öz peşəsinə rəğbətlə xidmət edib. Müharibə zamanı ruh yüksəkliyi ilə düşmənin üzərinə atılıb, döyüşkənliyi ilə xüsusi təyinatlı adını doğruldub. Döyüş mövqeyində Pərvin ağır yaralanarkən onun yanında Elnur adlı döyüşçü şəhadətə ucalıb.

Beləliklə, oktyabrın 26-da Qırmızı Bazar qəsəbəsinə bitişik Aşağı Tağaverd kəndində çoxsaylı qəlpədən ağır yaralanan Pərvinin dediyinə görə, həmin anda ilk çağırdığı silahdaşı İdris olub. Özünü yetirən İdrisə "məni burax, badim (müharibədə bu söz ən yaxın silahdaş mənasında işlənib) ağır yaralanıb, ona kömək et" - deyib. Yaralı halda olarkən yoldaşlarının "çox qan itirib, vaxtında geriyə çıxarmasaq, rəhmətə gedəcək" sözlərini eşidib. Onlara "qanı dayandıra biləcəyiniz qədər dayandırın, mənə heç nə olmaz" - deyə səslənib.

Qazi bir neçə xəstəxana, habelə ayrı-ayrı hərbi qospital, reabilitasiya mərkəzləri və poliklinikalarda müayinə və müalicə olunub, onun üzərində cərrahiyyə əməliyyatı aparılıb. Tibbi sənədlərində yazılan diaqnozda "partlayış travması, sol kürək, hər iki sağrı və sol budun yuxarı üçdə birinin odlu silah çoxsaylı kor qəlpə yaralanması, tam bərkimiş dəri çapıqları, ağrı sindromu, yeriş və hərəkətin pozulması, sol aşağı ətraf funksiyasının mühüm dərəcədə pozulması, hər iki sağrı və belin sağ yarısının yumşaq toxumalarının çoxsaylı yad cismi (metal qəlpələr)" və digər fəsadlar öz əksini tapıb.

Həm dinc, həm də müharibə dövrlərində hərbi xidmətə yararsız hesab edilən Pərvin 3-cü qrup əlil olaraq 2021-ci ilin may ayında hərbi xidmətdən istefaya buraxılıb.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr, 29 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş P. Şahməmmədov "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları, eləcə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamına əsasən, "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunub.

Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının 31 dekabr 2020-ci il tarixli müvafiq əmri ilə döyüşçüyə zoğalı beret daşıma hüququ verilib.

Yevlax rayonunun Kövər kəndində yaşayan Pərvin səhhəti ilə bağlı müalicəsini davam etdirir. Yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsinə öz töhfəsini verməyə çalışır. Qazilər və xidmətdə olan silahdaşları ilə həmişə əlaqə saxlayır, anım günlərində şəhidlərin məzarlarını ziyarət edir, onların ailələrinə baş çəkir.

"Vətən torpağı bizə ulu babalarımızın müqəddəs əmanətidir. Dövlətimiz və xalqımız naminə döyüşərək şəhadətə ucalmaq, bu yolda qazi olmaq böyük şərəfdir" - deyən Pərvin torpaqlarımızın müdafiəsində dayanan hərbçilərimizə yenilməzlik arzuladığını vurğuladı.

Həmişə xoş sorağını eşidək, Pərvin!

**Yalçın Abbasov**

4_Layout 1 13.10.2022 16:09 Page 1



# ALİ HƏRBİ MƏKTƏBDƏ TƏLİM-TƏDRİS PEŞƏKARLIQLA HƏYATA KEÇİRİLİR

Daxili Qoşunların Ali Hərbi Məktəbi ali xüsusi-hərbi təhsilli kadrların hazırlanmasını və zabitlərin ixtisaslarının artırılmasını uğurla həyata keçirir. Burada tədris prosesi Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, Daxili işlər naziri və daxili qoşunların komandanının əmr və direktivlərinin, eyni zamanda, Avropada tətbiq olunan Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğun olaraq təşkil olunur.



Təlim-tədrisin planlaşdırılması zamanı kursantlara Daxili Qoşunların ehtiyaclarına və dövrün tələblərinə uyğun təhsilin verilməsi və qazandıqları bilikləri nə vaxt, harada, necə tətbiq edəcəkləri praktiki olaraq göstərilir, onların savadlı və bacarıqlı hərbi qulluqçu kimi hazırlanmalarına xüsusi diqqət yetirilir, sistemli şəkildə fərdi və qrup halında çalışmalar təşkil edilib keçirilir.



Bunun nəticəsidir ki, Ali Hərbi Məktəbin tədris bölükləri intizamlı, savadlı kursantları ilə hər zaman fərqlənir. Zabit hazırlayan tədris taborunun komandiri polkovnik-leytenant Zamiq Rəhmanov qeyd etdi ki, baş leytenant Elmar Həsənovun komandiri olduğu zabit hazırlayan tədris bölüyü bu baxımdan səciyyəvidir.



Baş leytenant E.Həsənov məktəbdə tədris prosesinin əsas məqsədinin hərbi-nəzəri və hərbi-praktiki biliklərə, intellektual təfəkkürə malik, ali təhsilli zabit kadrları hazırlamaq olduğunu bildirdi. O, təlim-tədrisin peşəkar, savadlı müəllim heyəti tərəfindən təşkil olunduğunu diqqətə çatdırdı. Söylədi ki, tədris Ali Hərbi Məktəbin tədris şöbəsinin hazırladığı və məktəb rəisinin təsdiq etdiyi məşğələ cədvəlinə əsasən həyata keçirilir: "Daxili Qoşunların taktiki hazırlığı, topoqrafiya, hərbi mühəndis hazırlığı, mülki müdafiə və tibbi biliklərin əsasları, informatika və təhsildə İKT, habelə digər fənlər kafedraların peşəkar hərbi, həmçinin, mülki müəllim heyəti tərəfindən tədris olunur".



Bölük komandiri fikirlərinin davamı olaraq vurğuladı ki, təlim-tədris prosesi 1 və 2-ci yarımillik olmaqla, planlaşdırma şöbəsi tərəfindən planlaşdırılır, dərslərin gedişatı, eləcə də həftəlik məşğələ cədvəllərinin tərtib olunmasına nəzarət edilir: "Birinci semestrin yekununda bütün kurslar üzrə tədris olunmuş fənlərdən test və praktiki üsulla imtahanlar keçirilir. Yəni kursantlar nəzəri biliklərdən test üsulu ilə, Daxili Qoşunların Təlim mərkəzində isə praktiki təlimlər üzrə imtahana cəlb olunurlar. İmtahan cədvəllərinin hazırlanması, imtahanların keçirilməsi, nəticələrin hesablanması və qiymətləndirilməsi Ali Hərbi Məktəbin qiymətləndirmə şöbəsi tərəfindən aparılır. İmtahanlarda daha yüksək bal toplayan kursantlar mükafatlandırılırlar".

Həmçinin, məktəbin kursantları gələcək ixtisaslarına uyğun vəzifələrdə xidmət təcrübəsi əldə etmək üçün qoşun təcrübəsinə cəlb olunurlar. Qoşun təcrübəsi Ali Hərbi Məktəbin tədris planına əsasən, Daxili Qoşunların hərbi hissələrində keçirilir. Qoşun təcrübəsi kursantların Ali Hərbi Məktəbdə aldıqları nəzəri biliklərin artırılmasında və öz ixtisaslarına uyğun praktiki vərdişlərin qazanılmasında əsas tədris fəaliyyətidir.

Bundan əlavə, kursantların nəzəri biliklərinin artırılması, praktiki vərdişlərinin təkmilləşdirilməsi, döyüş şərtlərinə yaxın şəraitlərdə bölmələrin idarə edilməsi üsullarına yiyələnməsini, eləcə də təhkim olunmuş silah və texnikadan istifadə şərtlərinin mükəmməl mənimsənilməsini təmin etmək məqsədilə praktiki təlimlər keçirilir. Kursantlar təlimlərdə bölmə komandiri, eləcə də təlimin məqsədinə uyğun olaraq digər vəzifələri icra edirlər.

Bütün bunlar onu deməyə əsas verir ki, Ali Hərbi Məktəbdə təcrübəli müəllim heyəti tərəfindən həyata keçirilən təlim-tədris prosesi, o cümlədən, kursantların imtahanda əldə etdikləri nailiyyətlər gələcəkdə qoşunların peşəkar, Vətənə, dövlətə, dövlətçiliyə, hərbi anda sadiqlik, hərbi xidmətin çətinliklərinə dözümlülük keyfiyyətlərinə malik, Azərbaycan Respublikasının qanunlarına və hərbi nizamnamələrinin tələblərinə sözsüz əməl etməyə qadir və bunları şəxsi heyətə aşılamağı bacaran zabit heyətilə komplektləşdirilməsinə zəmin yaradır.

**kapitan Şahin Cəfərzadə**

# QİDALARIN TƏLƏB OLUNAN KEYFİYYƏTDƏ HAZIRLANMASI DİQQƏTDƏ SAXLANILIR



Hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi keyfiyyətli qidalanmadan asılıdır. Bu baxımdan şəxsi heyətin kalorili yeməklərlə qidalanması 16073 saylı hərbi hissə komandanlığının nəzarətindədir.

Hərbi hissənin ərzaq xidmətinin rəisi kapitan Cavad Abdullayev qeyd etdi ki, şəxsi heyətin qidalanması müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edilir. Onun sözlərinə görə, xörəklərin keyfiyyətlə hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu vacib tələblərdəndir. Bu baxımdan sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün yeməkxanada lazımi tədbirlər görülür. Şəxsi heyətin qidalanması gündəlik olaraq üç dəfə həyata keçirilir və bu zaman kalorinin düzgün bölüşdürülməsinə xüsusi diqqət yetirilir. Qidalanmadan sonra bütün qablar iki faizli məhlulla yuyulur. Şəxsi heyətə təqdim olunmamışdan əvvəl qidanın keyfiyyəti həkim tərəfindən yoxlanılır. Yeməkxananın döşəməsi xlorlu məhlulla hər gün silinir və dezinfeksiya olunur.

Yeməkxana rəisi baş çavuş Siruz Mirzəliyev şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə məlumat verərkən bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Mövsümi salatlar, meyvə şirələri, həmçinin, müxtəlif meyvə və tərəvəzlərdən ibarət qəlyanaltılar da qida rasionuna daxildir.

Baş çavuş S.Mirzəliyev əlavə etdi ki, aşpaz-təlimatçı baş çavuş Əvəz Əliyev, baş aşpaz-manqa komandiri baş çavuş Asəf Qədirov funksional vəzifələrinin öhdəsindən layiqincə gəlir, bunun üçün bacarıqlarını əsirgəmirlər. Yeməkxana rəisi, həmçinin, qidaların tələb olunan keyfiyyətdə hazırlanmasında kurs keçmiş ixtisaslı əsgər aşpazlardan Niyaməddin Nuriyev, Kənan İsmayılov, mülki işçi - aşpazlardan Bəsti Məmmədova və Ədilə Məmmədovanın adlarını çəkərək, fəaliyyətlərini müsbət qiymətləndirdi.

**kapitan Xədicə Hacızadə**

# VETERAN MİNNƏTDARLIĞI

Hörmətli redaksiya!

Bu yaxınlarda gözlərimin müalicə olunması üçün Daxili İşlər Nazirliyinin Daxili Qoşunları tərəfindən Türkiyə Respublikası Səhiyyə Nazirliyinin Gülhanə Tədris və Araşdırmalar Xəstəxanasının Göz Xəstəlikləri Klinikasına göndərilmişəm. Həmin klinikada gözlərimin cərrahiyyə əməliyyatı aparılıb. Cərrahiyyə əməliyyatı öz müsbət nəticələrini verib. Hörmətli türk həkimləri gözlərimin sağalması üçün öz zəhmətlərini əsirgəməyiblər. Müasir standartlara cavab verən, təcrübəsi, peşəkarlığı və xeyirxahlığı ilə seçilən tibbi kollektivə malik klinikadan xoş təəssüratlarla qayıtmışam. Onlara xüsusi təşəkkürümü qeyd etməyi özümə borc bilirəm. Ümumilikdə, Azərbaycandan bu tibb ocağına göndərilən hər bir veteran və hərbi qulluqçuya göstərilən xoş münasibət, onların şəfa tapması üçün yaradılan lazımi şərait, xüsusən müharibə dövründə ağır yaralanmış qazilərimizin sağlamlığının bərpası naminə edilən fədakarlıq ölkələrimiz arasında sarsılmaz dostluğun və qardaşlığın təzahürüdür.

Veteran olaraq səhhətimdə yaranmış problemlə əlaqədar müraciətimə diqqətlə yanaşdığına və göstərdiyi qayğıya görə Daxili Qoşunların komandanlığına dərin minnətdarlığımı bildirirəm.

**Çingiz Daşdəmirov**
**Daxili Qoşunların Veteranlar şurasının sədri**

*idman*

# DAXİLİ QOŞUNLARIN YIĞMA KOMANDASI BİRİNCİLİYİ QAZANIB




Daxili işlər nazirinin müvafiq əmrinə əsasən, sentyabrın 28-dən 30-dək daxili işlər orqan və hissələri arasında atıcılıq üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib. Yarışda Daxili Qoşunların yığma komandası 7 nəfər idmançı və 1 nəfər nümayəndə ilə təmsil olunub.

Yarışın proqramına uyğun olaraq, fərdi birincilikdə 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun atıcı-snayperi MAXE əsgər Vüsal Əliyev tapançadan atəş (PM-2) tapşırıqlarının yerinə yetirilməsi üzrə 3-cü, 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi əməliyyat qrupunun atıcı-snayperi çavuş Təbriz Məmmədov avtomatdan atəş (AK1) tapşırıqlarının yerinə yetirilməsi üzrə 2-ci yerə layiq görülüblər. 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin götürmə yarımqrupunun komandiri gizir Həqiqət Atayeva isə qadınlar arasında tapançadan atəş (PM-2) tapşırığının yerinə yetirilməsi üzrə 1-ci yeri qazanıb.

Ümumilikdə, yarışın nəticələri üzrə Daxili Qoşunların yığma komandası 795 xal toplayaraq, 23 komanda arasında 1-ci yerdə qərarlaşıb.

Keçirilən yarışlarda medal qazanan hərbi qulluqçular Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı tərəfindən mükafatlandırılıblar.

**Mətbuat xidməti**

*NÜMUNƏVİ XİDMƏT*

# XİDMƏTDƏ ƏLDƏ ETDİYİ UĞURLARLA YOLDAŞLARINA ÖRNƏKDİR

25033 saylı hərbi hissənin nümunəvi, nizam-intizamlı, bacarıqlı hərbi qulluqçularından biri gizir Orxan İbrahimovdur. O, 1991-ci il avqustun 8-də Lənkəran rayonunun Girdəni kəndində anadan olub. Orta təhsillidir. 2008-ci ildə doğulub boya-başa çatdığı Girdəni kənd tam orta məktəbini bitirib. Məktəbi bitirdikdən sonra Lənkəran Dövlət Humanitar Kollecinin xalq çalğı alətləri və orkestr dirijoru fakültəsinə daxil olub. 1 il kollecdə təhsil aldıqdan sonra 2009-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət keçib. 2011-ci ilin aprel ayında müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra təhsilini davam etdirib. 2014-cü ildə kolleci bitirib. Elə həmin ildən Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Müxtəlif vəzifələrdə xidmət edib. 2017-ci ildən bu günədək hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin mütəxəssisidir. Funksional vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçumuz bacarığı, təşkilatçılıq qabiliyyəti, müsbət mənəvi keyfiyyətləri, xidmətdə, döyüş və mənəvi-psixoloji hazırlığında əldə etdiyi uğurları ilə yoldaşlarına nümunədir. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Hərbi qulluqçular arasında hörmət və nüfuza malikdir.



Tərbiyə işləri üzrə bölmənin mütəxəssisi kimi mədəni-maarif əmlaklarının qorunub-saxlanılmasına cavabdehlik daşıyır. Gizir O.İbrahimov söylədi ki, vaxtaşırı olaraq klubun istifadəsində olan mədəni-maarif əmlaklarının hesabatı aparılır və aidiyyəti üzrə bölmə rəisinə məlumat verilir.

Vəzifələrini vicdanla icra edən gizir O.İbrahimova bundan sonrakı xidmətində uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000